# Musiqi tariximizdən

## "Ovşarı"

Bu zərb muğam "Şüştər" lad-məqamına (4/2 ölçüdə) əsaslanır, aşıq yaradıcılığında bir ənənəvi hava kimi də məşhurdur.

Zərb muğam kimi "Ovşarı" "Şüştər" məqamının iki şöbəsinin intonasiyalarını özündə cəmləşdirir: "Şüştər" və "Tərkib".

Bu muğam öz musiqisi etibarilə müəyyən dərəcə təntənəni, əzəməti əks etdirir.

## "Segah"

Xalqımız arasında ən çox yayılmış muğamlardan biri "Segah"dır. "Segah" 7 əsas muğamdan üçüncüsüdür. "Segah" məfhumu iki sözün birləşməsindən yaranmışdır. Se - üç, gah isə mövqe, məkan deməkdir.

Azərbaycanda "Segah"ın 3 növü daha geniş yayılmışdır. Bunlar "Zabul - Segah", "Mirzə Hüseyn Segah", "Xaric Segah"dır.

## "Dügah"

"Rast" ailəsinə daxil olan muğamlardan biri də "Dügah" dır. Bu muğam hazırda xanəndə və sazandalarımız tərəfindən nadir hallarda ifa olunur.

"Rast" ailəsinə aid olan hər bir muğam dəstgahının öz kökü və tonallığı olduğu kimi, "Dügah" da "mi-bemol" mayeli rast məqam - tonallığında çalınıb-oxunur.

"Dügah" dəstgahı 10 şöbə və guşəni özündə cəmləşdirir. Bunlar "Dügah", "Ruh - ül - ərvah", "Mavərənnəhr", "Hüseyni", "Şikəsteyi-Fars", "Dilruba", "Əraq", "Zəngişötər", "Rak", "Dügaha ayaq" şöbə və guşələrdir.